# №135-IIQ / 01.06.2001 Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı haqqında

**Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı haqqında**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. «Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı haqqında» Əsasnamə təsdiq edilsin (əlavə olunur).

II. Azərbaycan Respublikası gömrük orqanlarının bayrağının təsviri təsdiq edilsin (əlavə olunur).

III. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Prezidenti

Heydər ƏLİYEV.

Bakı şəhəri, 1 iyun 2001-ci il.

№ 135-IIQ.

«Azərbaycan» qəzetində dərc edilmişdir (20 iyun 2001-ci il, № 137).

Azərbaycan Respublikasının Qanunvericilik Toplusunda dərc edilmişdir (30 iyun 2001-ci il, № 6, maddə 389).

---

«Azərbaycan Respublikası<br>Gömrük orqanlarının tanınma nişanı haqqında»<br>Azərbaycan Respublikasının<br>1 iyun 2001-ci il tarixli Qanunu ilə<br>təsdiq edilmişdir

Azərbaycan Respublikası Gömrük orqanlarının bayrağı haqqında<br>Əsasnamə

1. Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı respublika gömrük orqanlarının şərəf və şöhrət rəmzidir. O, Azərbaycan Respublikası gömrük orqanlarının hər bir əməkdaşına Azərbaycan Respublikasının iqtisadi suverenliyini və təhlükəsizliyini müdafiə etmək, öz xidməti vəzifələrini vicdanla yerinə yetirmək və gömrük xidməti intizamının tələblərinə əməl etmək borcunu xatırlatmaq üçündür.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, onun yerli orqanları və təşkilatları, eləcə də gömrük orqanlarının sərəncamında olan dəniz və çay gəmiləri Azərbaycan Respublikası gömrük orqanlarının bayrağını daşıyırlar.

3. Dəniz və çay gəmilərində istifadə olunan Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı hərəkətdə ikən qafeldə, dayanacaqda isə—arxa flaqştokda qaldırılır.

---

«Azərbaycan Respublikası gömrük<br>orqanlarının bayrağı haqqında»<br>Azərbaycan Respublikasının<br>1 iyun 2001-ci il tarixli, 135-IIQ saylı Qanunu ilə<br>təsdiq edilmişdir

Azərbaycan Respublikası gömrük orqanlarının bayrağının<br>Təsviri

Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı eninin uzunluğuna nisbəti 1:2 olan «Rənglərin standart nümunələri atlasının» 11/8 saylı rəng nümunəsinə uyğun açıq mavi (səma) rəngli düz dördbucaqlı ipək qumaşdan ibarətdir.

Bayrağın sol yuxarı hissəsində Azərbaycan Respublikası gömrük orqanlarının tanınma nişanı təsvir edilmişdir.

Bayrağın aşağıdakı 1/3 hissəsində sol kənarından sağ kənarına istiqamətləndirilmiş ağ rəngli avtomobil, dəmir, dəniz və hava yollarının təsvirləri əks etdirilmişdir.

---

© AzerSoft